

Rüşvət və qaçaqmalçılıq əməliyyatında həbs olunan Rza Zarrab xəstəxanaya yerləşdirilib.

“Qafqazinfo” Türkiyə mətbuatına istinadən xəbər verir ki, Metris həbsxanasında yatan Zərrab böyrəküstü nahiyəsində yaranan şişlərin müayinəsi üçün Şişli Etfal Təhsil və Araşdırma Xəstəxanasına aparılıb. Zərrab həbsxanada olduğu müddətdə şişin böyüdüyünü və təcili olaraq müalicəyə başlanması haqda həbsxana həkiminə müraciət etdiyi iddia edilir. İş adamının xəstəxanada nə qədər qalacağı hələ ki, bəlli deyil.